

# Böyük inkişaf epoxası, dirçəliş, milli intibah dövrü

## *Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də keçirilmiş plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilib*

*XX əsrin ikinci yarısında Azərbaycanın tənəzzüldən tərəqqiyə doğru irəlilədiyi, böyük islahatların həyata keçirildiyi inkişaf və dirçəliş dövrü, yeni mərhələnin başlanğıcı kimi xarakterizə olunması təsadüfi deyil.*

1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilən Heydər Əliyevin misilsiz xidmətləri sayəsində Sovet İttifaqının geridə qalmış respublikalarından biri olan Azərbaycan sürətlə inkişaf edən, elmi potensialı güclənən, iqtisadi, sosial və mədəni sahələrdə böyük nailiyyətlər qazanan ölkəyə çevrildi. Dövlətimizin gələcək müstəqilliyinin möhkəm təməlləri atıldı. Heydər Əliyev DTK-nın rəhbəri işlədiyi dövrdə gördüyü işləri daha geniş miqyasda, daha əsaslı şəkildə, xüsusən də konseptual halda davam etdirməyə başladı. Onun quruculuq fəaliyyəti respublikanın ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni sahələrini bütövlükdə əhatə etdi. Bütün bunlar ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti, güclü idarəetmə qabiliyyəti və xalqına bağlılığı nəticəsində mümkün oldu.

**(davamı 8-ci səhifədə)**

# Böyük inkişaf epoxası, dirçəliş, milli intibah dövrü

***Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də keçirilmiş plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilib***

**(əvvəli 1-ci səhifədə)**

Ötən əsrin 60-cı illərinin sonlarında sovet sosialist respublikası olan Azərbaycan iqtisadi gerilik, sənaye və kənd təsərrüfatı sahələrində durğunluq, yerli idarəetmədə səriştəsizlik və korrupsiya halları, ictimai narazılıq kimi böyük problemlərlə qarşılaşmışdı. İqtisadi vəziyyətin getdikcə daha da ağırlaşması, Azərbaycanın ittifaq ölkələri arasında geridə qalmış respublikalar sırasında olması səbəbindən SSRİ rəhbərliyi tərəfindən Heydər Əliyev 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə təyin edildi. O ağır illərdə Heydər Əliyevin rəhbərliyə gəlişi ilə ölkədə qayda-qanun bərpa edildi, iqtisadi inkişafın təməlləri qoyuldu, genişmiqyaslı islahatlara başlanıldı, kənd təsərrüfatının pambıqçılıq, üzümçülük, heyvandarlıq sahələrinə xüsusi diqqət yetirildi, meliorasiya və irriqasiya layihələri genişləndirildi. Kolxoz və sovxozlar arasında sağlam rəqabət mühiti yaradıldı. Sənaye sektorunda mühüm tədbirlər həyata keçirildi. Maşınqayırma, kimya sənayesi, elektrotexnika, yeyinti və yüngül sənaye sahələrində yeni zavod, fabrik və emal müəssisələrinin tikintisi respublikanın iqtisadi potensialını artırdı. Sumqayıt şəhəri kimya sənayesi mərkəzinə çevrildi. Neft sənayesi modernləşmə mərhələsinə keçdi, yeni neft yataqları kəşf olundu. Ölkənin qazlaşdırılmasında, elektrikləşdirilməsində böyük uğurlar qazanıldı. Strateji baxımdan mühüm əhəmiyyət kəsb edən Bakı-Balakən, Bakı-Xankəndi dəmiryolunun çəkilişi başa çatdırıldı. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində yaradılan mükəmməl və möhkəm iqtisadi baza respublikanın öz potensialı hesabına yaşamağa qadir olduğunu təsdiq etdi. Azərbaycan elmi, ədəbiyyatı və mədəniyyəti 60-cı illərdən sonra çiçəklənməyə və dünya miqyasında tanınmağa başladı. Hər zaman elmə, təhsilin inkişafına böyük əhəmiyyət verən respublika rəhbərinin təşəbbüsü ilə texniki peşə məktəblərinin, institutların sayı və keyfiyyəti artırıldı. Azərbaycan gənclərinin SSRİ-nin aparıcı ali məktəblərində təhsil almalarına şərait yaradıldı, elmi-tədqiqat institutlarının fəaliyyəti genişləndirildi. Milli dəyərlərin qorunması istiqamətində teatr, muzey, kitabxana, incəsənət müəssisələri yenidən quruldu, sənət adamlarının yaradıcılığı dəstəkləndi. "Azərbaycanfilm" kinostudiyasında dövrün məşhur filmləri çəkildi, milli musiqi və muğam festivalları keçirildi, mədəniyyətin yüksəlişi, milli-mənəvi dəyərlərin dirçəlişi istiqamətində böyük işlər görüldü.

Ümummilli lider Heydər Əliyevin ötən əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, tariximizin düzgün istiqamətdə öyrənilməsi, ana dilimizin inkişaf etdirilməsi yönündə apardığı məqsədyönlü siyasət xalqımızın gələcək taleyini müəyyənləşdirdi. Bütün mənalı ömrünü xalqının nicatına həsr etmiş, millətinin sabahı, gələcəyi naminə yorulmaq, usanmaq bilmədən ömrünün sonuna qədər çalışmış Ulu öndər vurğulayırdı ki, xalqın varlığını təsdiq edən, yaşadan onun dilidir. Öz ana dilini hədsiz məhəbbətlə sevən, bu dildə danışmağı ilə fəxr edən Heydər Əliyev ölkəmizə rəhbərliyinin ilk günlərindən ana dilimizin inkişafı istiqamətində qətiyyətli siyasət aparır, onun yaşaması, inkişaf etməsi üçün cəsarətli addımlar atırdı. Belə ki, Ulu öndərin Azərbaycana rəhbərliyinin ilk illərində SSRİ-nin tərkibində olan respublikalarda dil məsələsi yenidən gündəmə gətirilmişdi, "sovet xalqı" formalaşdırmaq adı altında müxtəlif xalqların dilini, mədəniyyətini, milli kimliyini yox etməyə yönələn siyasət yürüdülürdü. Bütün respublikalarda olduğu kimi, bu siyasət Azərbaycanda da həyata keçirilirdi. Rəsmi dövlət dili rus dili elan olunmuşdu. Dövlət tədbirləri rus dilində aparılır, televiziya və radio verilişlərində rus dilinə üstünlük verilir, rus dilində məktəblərin, uşaq bağçalarının sayı get-gedə artırdı. Respublika rəhbərləri belə bu məsələ ilə bağlı heç bir irad bildirmək səahiyyətində deyildilər. Rus dilini bilməyən şəxs dövlət idarələrində işə qəbul olunmur, bu, hətta qəbahət hesab edilirdi. Xalqını, millətini ülvi məhəbbətlə sevən, ona qırılmaz tellərlə bağlı olan Heydər Əliyev o illərdə Azərbaycan Respublikasının rəhbəri kimi öz mövqeyini qətiyyətlə, cəsarətlə ortaya qoyaraq doğma dilinin müdafiəsində dayandı. Belə ki, 1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsinin ümumxalq müzakirəsinin yekunlarına həsr edilmiş VII sessiyasında Ulu Öndərin təklifi ilə Konstitusiyanın 73-cü maddəsi "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir" redaksiyada təklif olundu. Heydər Əliyevin qətiyyəti və prinsipiallığı sayəsində 1978-ci il aprel ayının 21-də qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dili dövlət dili olaraq öz əksini tapdı. Bununla bərabər, ölkəyə rəhbərliyinin ilk illərindən onun göstərişi ilə respublikada yeni anadilli məktəblər açılır, təhsilin inkişafı xüsusi olaraq diqqətdə saxlanılır, yazıçılar öz əsərlərini, demək olar ki, yalnız ana dilində yazır, Azərbaycan dilində dövri mətbuatın tərəqqisinə xüsusi önəm verilir, dərsliklər nəşr olunur, dilçi alimlərin əməyi yüksək qiymətləndirilir, rəsmi dövlət tədbirləri ana dilində keçirilirdi. Bütün bunlar ümummilli liderin məqsədyönlü siyasətində ana dilinin dövlət statusunu qorumaq məqsədi daşıyırdı. "Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini - Azərbaycan dilini, dövlət dilini bilməlidir" - deyən Heydər Əliyev fəaliyyətinin bütün dövrlərində Azərbaycan dilinin keşiyində dayanmış, müstəqil dövlətçiliyimizdə Azərbaycan dilinin hakim dil olaraq möhkəmlənməsi və daha da inkişaf etdirilməsi istiqamətində əvəzsiz xidmətlər göstərmişdir.

Heydər Əliyevin birinci hakimiyyəti dövründə ən mühüm addımlardan biri milli kadr siyasətinin gücləndirilməsi idi. 1960-cı illərin sonlarına qədər Azərbaycan SSR-də yüksək vəzifələr əsasən digər sovet respublikalarından göndərilmiş şəxslərə həvalə olunurdu, dövlət idarəçiliyində, sənaye və kənd təsərrüfatı sahələrində yerli mütəxəssislərin rəhbər vəzifələrə yüksəlməsi çox çətin idi. Müdrik siyasətçi, uzaqgörən lider millətinin intellektual potensialını inkişaf etdirmədən, yerli kadrları hazırlamadan Azərbaycanın geridə qalmış vəziyyətdən çıxmasının mümkün olmayacağını bilirdi. Buna görə də onun hakimiyyətə gəlişi ilə milli kadr siyasəti əsas prioritetlərdən birinə çevrildi. Azərbaycanlıların dövlət strukturlarında məsul vəzifələrə irəli çəkilmələri respublikada alim, mühəndis, müəllim, həkim, dövlət məmurlarından ibarət ziyalı təbəqənin formalaşmasına, ölkənin intellektual potensialının artmasına təkan verdi. Heydər Əliyev respublikanın idarəetmə orqanlarında, sənaye müəssisələrində, elm və mədəniyyət sahələrində azərbaycanlı kadrların sayını artırmağa xüsusi diqqət yetirir, milli kadrların bacarıqlı, savadlı, məsuliyyətli olmasını prinsipial şəkildə tələb edir, onların hazırlığına hər cür şərait yaradırdı. Moskva, Leninqrad, Kiyev və SSRİ-nin digər şəhərlərində ali təhsil alıb mütəxəssis kimi yetişərək respublikaya qayıdan perspektivli gənclər dövlət idarəçiliyində, sənaye müəssisələrində, elmi-tədqiqat institutlarında, təhsil və səhiyyə sahələrində işlə təmin olunurdular. Gələcək müstəqil Azərbaycanın dövlətçilik institutlarının əsasının qoyulmasına zəmin yaradan bu siyasət Ulu öndər Heydər Əliyevin uzaqgörən liderlik qabiliyyətinin və milli maraqlara bağlılığının parlaq nümunəsi idi.

Sovet ordusunun rəhbər strukturlarında əsasən rus və digər qeyri-yerli millətlərin nümayəndələrinin üstünlük təşkil etməsi səbəbindən azərbaycanlı gənclər arasında hərbi peşəni seçənlərin sayı kifayət qədər deyildi. Çünki onları yüksək reytinqli hərbi məktəblərə demək olar ki, qəbul etmirdilər. Hərbi karyera üçün isə yerli tədris bazası həddindən aşağı səviyyədə idi. Xalqına, millətinə bütün varlığı ilə bağlı olan, dövlətçiliyimizə sədaqətlə xidmət edən Heydər Əliyev gələcəkdə Azərbaycanın təhlükəsizliyi və müdafiə qabiliyyətinin gücləndirilməsi üçün hərbi sahədə də milli kadr siyasəti həyata keçirirdi. Böyük zəhmətin, müdrik fəaliyyətin nəticəsində Heydər Əliyev Bakıda C.Naxçıvanski adına Hərbi Məktəbin açılması nail oldu. Respublikada dövrün ən müasir texniki, elmi, tədris tələblərinə cavab verən hərbi tədris bazasının olması tarixi hadisə idi. 1971-ci ildə təsis edilən məktəb minlərlə azərbaycanlı gəncin hərbi kadr kimi yetişməsinə imkan yaratdı. Sovet İttifaqında nadir hərbi təhsil ocaqlarından biri olaraq nizamlı milli ordunun formalaşmasında mühüm rol oynadı. Həmin dövrdə minlərlə azərbaycanlı gəncin SSRİ-nin aparıcı hərbi akademiyalarına - Moskva, Leninqrad, Kiyev, Tbilisi və digər şəhərlərdəki məktəblərə göndərilməsi də peşəkar zabit korpusunun formalaşmasına şərait yaratdı. SSRİ ordusunda azərbaycanlı zabitlərin sayı əhəmiyyətli dərəcədə artdı. Onlar təkcə Azərbaycan ərazisində deyil, İttifaqın müxtəlif yerlərində xidmət edir, yüksək rütbələrə yüksəlirdilər. Həyata keçirilən milli kadr siyasəti dövlətçilik ənənələrinin möhkəmlənməsinə, milli şüurun təşəkkülünə böyük təkan verdi.

Ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərliyinin birinci mərhələsində dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilən milli kadr siyasəti texniki və peşəkar hazırlıqla məhdudlaşmırdı. Uzaqgörən, müdrik siyasətçi Azərbaycan gəncləri arasında vətənpərvərlik ruhunun gücləndirilməsinə, milli şüurun formalaşmasına xüsusi əhəmiyyət verirdi. Hərbi sahədə yetişdirilən gənclər həm də milli dəyərlərə sadiq, dövlətə bağlı, intizamlı və peşəkar mütəxəssislər kimi formalaşırdılar. Dövlətin, xalqın mənafeyini hər şeydən üstün tutan, millətin gələcəyini düşünən liderin hərbi sahədə milli kadr siyasəti sonralar müstəqil Azərbaycan Respublikası Silahlı Qüvvələrinin formalaşmasında həlledici rol oynadı. 1990-cı illərin əvvəllərində Azərbaycan müstəqilliyini bərpa edəndə ordu quruculuğunda həmin illərdə yetişən təcrübəli zabitlər, hərbi mütəxəssislər öndə sıralarda dayandılar.

Heydər Əliyevin respublikamıza rəhbərliyinin birinci mərhələsi sovet Azərbaycanın inkişafında qızıl dövr kimi tarixə düşdü. Bu illər ərzində ölkə iqtisadiyyatı gücləndi, sənaye və kənd təsərrüfatı inkişaf etdi, təhsil və elm yüksəldi, milli şüur və ziyalı təbəqə formalaşdı. Azərbaycanın müasir intibah dövrü kimi dəyərləndirilən 1970-1980-ci illərin böyük inkişaf epoxası xalqımızın qəlbində, düşüncələrində illərlə sıxılıb qalmış milli idealın - azadlıq, müstəqillik, suveren Azərbaycan dövləti ideyalarının canlanmasına, gələcək qüdrətli milli azadlıq hərəkatının ideya-mənəvi nüvəsi və hərəkətverici qüvvəsi dərəcəsinə yüksəlməsinə əlverişli zəmin yaratdı. 1970-ci illərdən başlayaraq, Azərbaycan nəinki sürətli yüksəliş mərhələsinə qədəm qoydu, yeni intibahını yaratdı, həm də bu intibahın növbəti pilləsi olan azadlıq mücadiləsinə yol aldı. Heydər Əliyevin bu dövrdə yaratdığı möhkəm əsaslar dövlətimizin müstəqilliyi və möhtəşəm zəfərlər qazanan Qalib Azərbaycanın gələcək inkişafı üçün sarsılmaz bünövrə oldu.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**